



# "Yeni Daşkəsən" ideyası Prezidentin böyük dəstəyi və qayğısı nəticəsində uğurla reallaşır

**Müstəqilliyinin 25-ci ilinə qədəm qoyan Azərbaycan üçün son illər xarakterik olan beynəlxalq uğurlardan biri qlobal kataklizmlərin daha da dərinləşdiyi indiki həssas dönəmdə dünya birliyində özünü layiqli qoruyub saxlamasıdır. Bunun da əsas səbəbləri Azərbaycanın yerləşdiyi bölgənin lideri statusunu getdikcə gücləndirməsi, söz sahibi olması, Avropanın enerji xəritəsinə etdiyi korrektələr və bu sahədə öz diktəsini etməsi, ən əsası, hər sahə üzrə müstəqil siyasət həyata keçirməsidir.**

Son illərdə Azərbaycanın bütün bölgələri dəyişib, inkişaf edib. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində rayonların iqtisadiyyatı daha da möhkəmlənib, əhalinin yaşayış səviyyəsi yaxşılaşıb. Bölgələrdə geniş abadlıq və quruculuq işləri aparılıb. Prezident İlham Əliyevin sərəncam və göstərişləri əsasında regionlarda həyata keçirilən quruculuq işləri hər bir bölgənin inkişaf strategiyasına uyğun aparılır. İndi bütün regionlarda səngiməyən abadlıq-quruculuq işləri ölkəmizin kompleks inkişafını təmin edir. Bu sırada son illərdə Daşkəsən rayonunda görülən işlər də diqqəti cəlb edir. Azərbaycan Prezidenti İlham Əliyevin göstəriş və tapşırıqları və dövlət proqramlarının icrası əsasında respublikamızın bütün bölgələrində olduğu kimi, Daşkəsən rayonunda da geniş tikinti, quruculuq, abadlıq işləri aparılır, ucqar dağ kəndlərinə yollar çəkilir, körpülər inşa olunur, su, elektrik, qaz təchizatı yaxşılaşdırılır.

Hinaldağdan və Qoşqar dağından məğrurluqla boylanan uca qarlı zirvələri, bumbuz və gursulu çayları, təmiz və saf havası, yaşıllığa bürünən dilbər gözəlliyi, ümumiyyətlə, ilin bütün fəsillərində təbiətinin əsrarəngiz mənzərəsi ilə insanın ruhunu oxşayan Daşkəsən rayonunun inkişafı doğrudan da qürurvericidir. Düşmənin qarşısında hər zaman mətinliklə dayanan, uca dağları, sıldırımlı qayaları ilə alınmaz qalaya çevrilən Daşkəsən son illərdə həm də quruculuq meydanına çevrilib. Bu gün Daşkəsənə ayaq basan hər kəs elə ilk addımda rayonun son illərdə keçdiyi inkişaf yolunun, quruculuğun və abadlığın şahidi olur.







Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair dövlət proqramları ölkənin bütün bölgələrində olduğu kimi, Daşkəsən rayonunda da uğurla həyata keçirilir. Son illərdə rayonda mühüm infrastruktur layihələri yerinə yetirilib: Mərkəzi kitabxana, mərkəzi rayon xəstəxanası, əlil, şəhid ailələri və qəzalı vəziyyətdə olan yaşayış evlərinin sakinləri üçün ümumilikdə 80 mənzilli 5 yaşayış binası, statistika idarəsinin inzibati binası, 13 ümumtəhsil məktəbi və digər sosial yönümlü obyektlər tikilib. "Daşkəsən Filizsaflaşdırma" kombinatının fəaliyyəti bərpa olunub. Hazırda rayonda əlvan metal, filiz və əhəng daşı hasilatı uğurla davam edir. Dəmir yolu körpüsü əsaslı təmir edilib, asfalt və çovdar qızıl zavodları və tutumu 1000 ton olan soyuducu anbar kompleksi istifadəyə verilib, geniş abadlıq-quruculuq işləri aparılıb.







Daşkəsəndə daxili və kəndlərarası yolların yenidən qurulması istiqamətində mühüm işlər görülüb. Prezident İlham Əliyevin sərəncamı ilə ayrılmış vəsait hesabına uzunluğu 47,4 km olan Gəncə-Daşkəsən-Xoşbulaq avtomobil yolu əsaslı təmir olunub.

Ölkəmizin hər yerində son illərdə geniş vüsət alan yenidənqurma və abadlıq işləri Daşkəsən şəhərinin timsalında da aydın görünür. Şəhərin kanalizasiya sistemi, küçələrinin işıqlandırma sistemi yenidən qurulub, 20 yaşayış binasında bərpa-gücləndirmə işləri aparılıb, mədəniyyət evinin, yaşayış binalarının dam örtükləri təmir edilib, "Bayraq meydanı" yaradılıb.

Daşkəsəndə Azərbaycan dövlətçiliyinin möhkəm əsaslar üzərində qurulmasında, respublikanın hərtərəfli inkişafında müstəsna xidmətləri olan ümummilli lider Heydər Əliyevin xatirəsi layiqincə əbədiləşdirilib. Ümummilli liderin adını daşıyan park daşkəsənlilərin ən sevimli istirahət yerlərindən biridir. Daşkəsən şəhərinin mərkəzində isə ulu öndərin abidəsi ucaldılıb. Keçən il oktyabrın 17-də Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Daşkəsəndə Heydər Əliyev Mərkəzinin açılışında iştirak ediblər. Azərbaycanın Heydər Əliyev irsinə əsaslanan davamlı inkişaf konsepsiyasının mahiyyətinin aydın şəkildə öyrənilməsində, ulu öndərin irsinin gənc və böyüməkdə olan nəslə çatdırılması işində mühüm rol oynayan bu mərkəz həm də Daşkəsən şəhərinin görkəminə xüsusi gözəllik verir. Mərkəzin açılışında iştirak edən dövlət başçısı İlham Əliyev dahi şəxsiyyətin Azərbaycan xalqı, dövləti qarşısındakı xidmətlərinin böyüklüyündən geniş bəhs edərək, bu irsin öyrənilməsinin və gələcək nəsillərə çatdırılmasının vacibliyini qeyd etmişdir.

Prezident İlham Əliyev Daşkəsənə səfəri zamanı rayon icra hakimiyyətinin yeni binasında yaradılan şəraitlə tanış olub, avtovağzal kompleksinin, Gənclərin təlim və istirahət mərkəzinin açılışında iştirak edib. Bütün bunlar onu göstərir ki, Azərbaycanda hər bir sahədə həyata keçirilən siyasət Daşkəsəndə də uğurla reallaşır. Yeni istifadəyə verilən hər bir ünvan isə bütövlükdə rayonun simasını gözəlləşdirir, dağlar qoynunda yerləşən Daşkəsənin gözəlliyinə yeni töhfələr verir.

Daşkəsənə ötən ilin oktyabrında etdiyi səfərdən sonra Prezident İlham Əliyev Daşkəsən şəhərində abadlıq-quruculuq işlərinin davam etdirilməsini, habelə "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda rayon üzrə müəyyən olunmuş tədbirlərin həyata keçirilməsini təmin etmək məqsədi ilə 2 milyon manatın ayrılması barədə sərəncam imzalayıb. Ümumilikdə isə son iki ildə Daşkəsənin sosial-iqtisadi inkişafının sürətləndirilməsi məqsədi ilə Prezidentin Ehtiyat Fondundan 4 milyon manat ayrılıb.

Respublikamızın digər rayonlarında olduğu kimi, Daşkəsən rayonunda da 2015-ci ilin ötən dövründə iqtisadi və sosial sferada müsbət nəticələr əldə olunub. Xüsusən iqtisadiyyatın əsas sahələrində istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcmi əvvəlki ilə nisbətən müxtəlif sahələr üzrə xeyli artıb. Bu dövrdə son statistik məlumatlara əsasən, sənaye üzrə 2 milyon 206 min manat (əvvəlki ilə nisbətən 1,7 faiz çox), kənd təsərrüfatı məhsulları 9 milyon 403 min manat (0,5 faiz çox), nəqliyyat üzrə 1 milyon 352 min manat (5,5 faiz çox), ticarət və ictimai iaşə xidmətləri üzrə 7 milyon 999 min manat (6,5 faiz çox) olub.

Hazırda yeni yaradılacaq kənd təsərrüfatı idarəsinin inzibati binasının, Alunitdağ qəsəbəsində 35/6 kv-luq elektrik yarımstansiyasının, Qabaqtəpə-Astaf avtomobil yolunda 2 ədəd körpünün tikinti işləri davam etdirilir. Ümumiyyətlə, son vaxtlar Daşkəsən Rayon İcra Hakimiyyəti tərəfindən aparılan ardıcıl, məqsədyönlü tədbirlər nəticəsində yaxın gələcəkdə də rayonda yeni müəssisələrin yaradılması və bir sıra irimiqyaslı tikinti, təmir - bərpa işlərinin həyata keçirilməsi nəzərdə tutulur. Həmçinin Daşkəsən şəhərində Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün yeni 36 mənzilli yaşayış binasının tikintisi üçün torpaq sahəsi ayrılıb və tezliklə həmin binanın tikintisinə başlanılacaq.

Rayonda il ərzində əhalinin elektrik enerjisi, qaz, istilik və içməli su ilə təchizatı vəziyyətinin yaxşılaşdırılması məqsədilə daxili imkanlar hesabına mühüm işlər görülüb. Daşkəsən şəhəri üzrə 0,4 kv-luq hava elektrik xətlərinin SİP kabellə əvəz olunmasına, rayon ərazisində müasir tipli 6/0,4 kv-luq trasformator məntəqələrinin və yeni 35/6 kv-luq şəhər yarımstansiyasının və inşası dayandırılmış 35 kv-luq Əhmədli elektrik verilişi xəttinin tikintisinə başlanılıb.

Məlum olduğu kimi, Daşkəsən rayonunun bir çox yaşayış məntəqələrinin qazlaşdırılması ciddi problem olaraq qalırdı. Prezident İlham Əliyevin rayona səfərindən sonra bu problemin həlli istiqamətində mühüm addımlar atılıb. Bu mənada 2015-ci ildə rayonun ən mühüm uğurlarından biri Qazaxyolçular, Zağalı və Qaraqullar kəndlərinə mavi qazın verilməsidir. Bu münasibətlə oktyabrın 30-da Zağalı kəndində təntənəli mərasim keçirilib. Sovetlər dönəmində ucqar dağ kəndlərinə qaz çəkilişi xəyal kimi görünə bilərdi. Lakin bu gün bu cür kəndlərə də qaz xətti çəkilir.

Daşkəsən rayonunun su təminatında həmişə problemlər olub. Məhz Prezident İlham Əliyevin Daşkəsən rayonuna çox böyük diqqət, qayğısı və tapşırığı ilə bu layihə dövlət proqramına daxil edilib. Bu məqsədlə may ayında Azərbaycan hökuməti ilə Islam İnkişaf Bankı tərəfindən maliyyələşən "Daşkəsən şəhərinin su və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsinin həyata keçirilməsinə başlanılıb. Layihə çərçivəsində ilk olaraq yeni içməli su anbarının təməli qoyulub. Bu layihənin həyata keçirilməsi Kiçik Qafqaz sıra dağlarının yüksəkliklərdə yerləşən su mənbələrindən 20 kilometr məsafədən çəkilən su kəmərləri ilə Daşkəsən rayonunun sakinlərinin fasiləsiz, ekoloji cəhətdən təmiz su ilə təmin olunmasına imkan verəcək. İki ilə yaxın müddətdə icra olunacaq layihə ilə müasir tələblərə cavab verən su kəmərlərindən əlavə, Daşkəsən şəhərində 7 müxtəlif həcmli su anbarının və çirkab suların təmizləyici qurğusunun tikintisi də həyata keçiriləcək.

Rayonun bütün daxili yollarının, körpülərin əsaslı təmir üzrə Daşkəsən RİH tərəfindən Nazirlər Kabinetinə kompleks layihə təklifləri təqdim olunub. 3300 nəfər əhalinin yaşadığı 9 yaşayış məntəqəsini birləşdirən 25 kilometr uzunluğunda Daşkəsən - Əmirvar - Qabaqtəpə avtomobil yolunun tikintisi üzrə müvafiq sənədlər aidiyyəti üzrə qurumlara təqdim edilib və bu tədbirin həyata keçirilməsi "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na daxil edilib.

Bütün bu məsələlərlə bağlı Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyevin fikirlərini öyrəndik. O dedi: "Digər bölgələr kimi, Daşkəsən rayonu da öz inkişaf dövrünü yaşayır. Dövlət proqramında rayonla bağlı tədbirlərin yüksək səviyyədə yerinə yetirilməsi bu inamı söyləməyə əsas verir. Cari ilin ötən dövrünün sosial-iqtisadi göstəriciləri fonunda bu fikri də əminliklə söyləyə bilərəm ki, 2015-ci il də Azərbaycanın təbii sərvətlərlə zəngin sənaye rayonu olan Daşkəsənin tarixinə ən sürətli inkişaf dövrü kimi yazılacaq. Möhtərəm Prezident İlham Əliyevin bölgələrə səfəri çərçivəsində Daşkəsən rayonu da xüsusi yer tutur. Səfər çərçivəsində ayrı-ayrı sosial obyektlərin açılışında və təməlqoyma mərasimində iştirak edən cənab İlham Əliyevin çıxışlarında hər zaman bu fikir önə çəkilir ki, uğurlarımız gələcəyə daha böyük nikbinliklə baxmağa əsas verir.

"Yeni Daşkəsən" layihəsi də cənab Prezidentin yürütdüyü inkişaf siyasətindən qaynaqlanır. Bu layihə bütün rayon ictimaiyyətinin dərin razılığı ilə qarşılanır, bəyənilir və dəstəklənir. Bununla əlaqədar ölkə başçısına, baş nazirə, aidiyyəti nazirliklərə, komitələrə, şirkətlərə müraciətlər olunub. Artıq Nazirlər Kabinetində layihəyə müvafiq qaydada baxılaraq qaldırılan məsələlərin həlli barədə aidiyyəti üzrə nazirliklər, digər qurumlar tərəfindən yazılı surətdə müsbət rəylər alınıb. Hazırda həmin istiqamətdə işlər davam etdirilir".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 12 yanvar 2015-ci il tarixli sərəncamı ilə 2015-ci il respublikamızda "Kənd təsərrüfatı ili" elan edilib. Daşkəsən həm də kənd təsərrüfatı rayonudur. 2015-ci ilin ölkəmizdə "Kənd təsərrüfatı ili" elan olunması ilə əlaqədar Daşkəsəndə də mühüm tədbirlər həyata keçirilməkdədir. Bununla əlaqədar olaraq rayonda bu il ərzində kənd təsərrüfatında böyük uğurların əldə ediləcəyi şübhəsizdir.

Bu il Daşkəsən rayonunun ən böyük uğurlarından biri də I Avropa Oyunlarının məşəl yürüşünün yüksək səviyyədə təşkil edilməsi oldu. Məlum olduğu kimi, iyun ayında Azərbaycanda keçirilən I Avropa Oyunlarının məşəli ölkəmizin bütün şəhər və rayonlarında alovlandırıldı. Məşəl estafetini may ayının 16-da Daşkəsən rayonu qəbul etmişdi. Həmin gün bütün Daşkəsəndə əsl bayram əhval-ruhiyyəsi yaşanırdı. Rayonun canlı təbiətinin insanın ruhunu oxşayan əsrarəngiz mənzərəsi bu ovqata və məşəl estafetinə xüsusi yaraşıq və büsat verirdi. Daşkəsən məşəli vüqarla, qürurla qarşıladı. Mərasimin yüksək səviyyədə təşkil olunmasına görə birinci Avropa Oyunlarının Təşkilat Komitəsi tərəfindən Daşkəsən rayonuna "Xatirə" medalı verildi.

İlin sonlarına doğru Daşkəsən rayonu üçün əlamətdar hadisələrdən biri də Daşkəsən-Xoşbulaq-Astaf avtomobil yolunun Astaf kəndinə gedən hissəsində tikilmiş 2 ədəd körpünün istifadəyə verilməsi oldu. Rayonun 8 min 247 nəfər əhali yaşayan, 11 yaşayış məntəqəsini birləşdirən, işğal altında olan ərazilərinə gedən yolda Çoşqun, Əyriçay çayları üzərində salınan körpülərin inşasına 2014-cü ilin sentyabrında başlanılıb və işlər vaxtında başa çatdırılıb. Körpülərin istifadəyə verilməsi münasibətilə keçirilən mərasimdə çıxış edənlər rayonda aparılan abadlıq-quruculuq işlərinə, yeni yolların salınmasına, bu cür körpülərin tikilməsinə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildirdilər. Ölkə başçısı ilə fəxr etdiklərini bildirən daşkəsənlilər çıxışlarında Prezident İlham Əliyevə dərin ehtiramlarını, minnətdarlıqlarını və ən xoş arzularını ifadə etdilər.

Mərasimdə iştirak edən Daşkəsən RİH başçısı Əhəd Abıyev bildirdi ki, vaxtı ilə bu körpülərin olmaması səbəbindən ilin müxtəlif vaxtlarında yaşayış məntəqələri arasında nəqliyyat vasitələrinin hərəkətində və insanların gediş-gəlişində böyük çətinliklər yaranırdı. Yaşayış məntəqələri arasında nəqliyyat əlaqələri, sakinlərin gediş-gəlişi tamamilə dayanırdı, qəza halları baş verirdi. Belə vəziyyət həmin yaşayış məntəqələrində baş verən hər hansı bir hadisənin vaxtında qarşısının alınmasında ciddi çətinliklər törədirdi. Eyni zamanda, yaşayış məntəqələrinin əhalisinin bu cür çətin yaşayış şəraitinə görə başqa rayonların ərazilərinə köçməsi halları müşahidə olunurdu. Körpülərin tikintisinin başa çatması demək olar ki, ərazidə olan bütün problemlərin öz həllini tapmasına və kəndlərin hərtərəfli sosial-iqtisadi inkişafına imkan verəcək. Ulu öndər Heydər Əliyevin dediyi kimi: "Yol iqtisadiyyat, mədəniyyət, bir sözlə, həyat deməkdir".

*İnkişaf etməkdə olan rayonun daha da abadlaşdırılması, həyata keçirilən quruculuq işlərinin uğurla davam etdirilməsi, rayon sakinlərinin daha rahat yaşamaları, çalışmaları və istirahətləri üçün qarşıda mühüm və ciddi vəzifələr durur. Bu vəzifələrin yerinə yetirilməsi, Prezident İlham Əliyevin müəyyən etdiyi kursun inamla davam etdirilməsi üçün rayon rəhbərliyi və ictimaiyyəti bundan sonra da böyük əzm göstərəcək, üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirəcək, dövlətçiliyimizin möhkəmləndirilməsi, iqtisadiyyatımızın gücləndirilməsi istiqamətində bütün imkanlarını səfərbər edəcəklər.*







***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***